**UOT 338.61**

# AZƏRBAYCANDA TURİZMİN SƏMƏRƏLİ İNKİŞAFININ KONSEPTUAL MODELİ

**Firuz Əhməd oğlu Qurbanov**

*Qərb Universiteti, baş müəllimi*
*f.qurbanov@yahoo.com*

*Turizm sektoru dünyada xüsusi yerə malik olmaqla beynəlxalq xidmətlər ticarətinin dinamik inkişaf edən sahələrindəndir. Turizm əhalinin istirahətə, onun həyat səviyyəsinin keyfiyyətinin yüksəldilməsinə və tələbatının ödənilməsinə yönəldilən xidmət sahələrindən biridir. Son 20 ildə gələn xarici turistlərin orta illik artım sürəti dünyada 5,1% artaraq, ildə 43 milyon nəfər təşkil etmişdir. Dünyada 75 ölkə turizmdən 1 milyard ABŞ dolları gəlir əldə etmiş, valyuta daxilolmaları isə 14% təşkil etmişdir. Müasir şəraitdə qloballaşma və resursların məhdudluğu, qlobal sosial-iqtisadi hadisə kimi, turizmin intensiv inkişaf meyllərini qoruyub saxlamaq, turistlərin artan və dəyişən tələbatlarını ödəmək məqsədilə müxtəlif yanaşma və üsulların axtarılması zəruridir. Bu yollardan biri kimi, müxtəlif amillərin təsir dərəcəsini müəyyən etməklə turizmin inkişaf prosesinə innovasiyalı yanaşmadan istifadə edərək turizm sektorunda təkrar istehsal prosesinin fasiləsiz, davamlı inkişafını təmin etməkdir.*

***Açar sözlər:*** *Turizm, infrastruktur obyektlər, tələb, təklif, innovasiya, SWOT təhlil, keyfiyyət, modelləşdirmə.*

Modelləşdirmə, sosial-iqtisadi sistemin dərk etmə metodu kimi, XX əsrdə geniş yayılmışdır. Hazırda modelləşdirmə müasir elmin bütün sahələrində tətbiq edilir və modellərin qurulması, öyrənilməsi və tətbiqinə əsaslanır. Model - tədqiqat obyektinin şərti sxemi və ya təsviridir. Belə ki, obyektin vacib və əsaslı cəhətlərini özündə əks etdirir [3]. V.Leontyevin fikrincə, model yanaşma müasir iqtisadi fəaliyətin və ya fəaliyyətin pozulma vəziyyətinin sistemli öyrənilməsində, potensial və faktiki mənbələrin axtarılmasında, eyni zamanda aşkar edilən uyğunsuzluqların aradan qaldırılması yolları və vasitələrinin müəyyən edilməsində əvəzedilməz vasitədir [6].

Regionda turizmin səmərəli inkişaf modelinin formalaşması turizmin fəaliyyəti və inkişaf səmərəliliyinə təsir edən amilləri aşkar etməyə, turist sisteminin ayrı-ayrı elementləri arasında əlaqəni təhlil etməyə imkan verər. Bu

isə problemi aşkar etməyə, onları qruplaşdırmağa və istiqamətlərini müəyyənləşdirməyə, məqsəd və vəzifələri müəyyən etməyə imkan verər.

Regionda turizmin səmərəli inkişafının konseptual modeli aşağıdakı sxemdə verilir (sxem 1). Birinci blokda turizmin inkişaf səviyyəsinin təhlil həyata keçirilir.

Burada mövcud şəraitdə turizmin inkişafı üçün turizm sisteminin cari vəziyyəti müəyyənləşdirilir. Bu mərhələdə zəruri informasiya bazası toplanmalıdır ki, bu məlumat əsasında alternativ seçim həyata keçirilsin. Bu baxımdan, regionda turizmin inkişaf səviyyəsinin təhlili müxtəlif istiqamətlərdə həyata keçirilir və turist sahəsinin vəziyyəti kompleks qiymətləndirilir. Təhlilin əhəmiyyətli istiqamətlər üzrə həyata keçirilməsinə aşağıdakılar aiddir:

- turizm resurs potensialının təhlili;
- turizm infrastrukturunun təhlili;
- yerli əhalinin tələbatının təhlili;
- turist tələbatının təhlili;
- turizmin xarici mühitinin təhlili;
- turizmin inkişafının statistik göstəricilərinin təhlili.

Azərbaycan turist resursları üzrə böyük potensiaa malikdir. Bu potensialdan düşünülmüş və rasional istifadə xarici vətəndaşlar üçün ölkənin cəlbediciliyini yüksəltməyə imkan verər ki, buna da müxtəlif yeni və maraqlı turist proqramlarının və turlarının formalaşması hesabına nail olmaq olar.

Turist resursları turizm sənayesinin müvəffəqiyyətli inkişafının mənbəyini, turist müəssisələri və digər infrastruktur obyektlərinin tikintisi, yenidən qurulması və istismara verilməsinin əsasını təşkil edirlər.

Ümumilikdə, turizmin maddi-texniki bazasının inkişaf səviyyəsini (infrastruktur obyektləri, o cümlədən yerləşdirmə vasitələri, nəqliyyat, muzeylər, qoruqlar, ətraf zonalar) tam qənaətbəxş hesab etmək olmaz.

Yerli əhalinin tələbatının təhlil edilməsinin əhəmiyyəti ondan ibarətdir ki, mövcud ərazidə turizmin davamlı inkişafının formalaşması prosesində yerli əhali həlledici amil kimi (pozitiv və ya neqativ) çıxış edə bilərlər. Belə ki, turizm yerli əhalinin ənənəvi həyat tərzinə birbaşa təsir göstərir. Qeyd etmək lazımdır ki, turizmin xaotik inkişafı mədəniyyət abidələrimizə, bəzi hallarda isə yerli əhalinin ənənəvi həyat tərzində məcburi dəyişikliklərə səbəb ola və nəticədə, milli adət-ənənələrin itkisinə gətirib çıxara bilər. Turist tələbatının təhlili onların maraq və imkanlarının öyrənilməsi üzərində qurulmalıdır ki, bu da hansı xidmət, proqramlar və turların turistlər tərəfindən daha çox qəbul edilməsinin müəyyənləşdirilməsinə imkan verəcək. Bundan başqa, turist tələbatının təhlili satışın hansı həcmini və potensial turistlərin nə qədər artırılması imkanını müəyyənləşdirməyə imkan verir.




**Sxem 1.** Turizmin səmərəli inkişaf modeli

Yerli əhalinin və turistlərin tələbatı qarşılıqlı əlaqədə təhlil edilməlidir. Belə ki, yerli əhalini təkcə bu ərazidə yaşayan insanlar kimi deyil, həm də daxili və gediş turizmi istiqamətində potensial turistlər kimi nəzərdən keçirmək lazım-

dır. Bu məqsədlə, turizmin müxtəlif forma və növlərinin həyata keçirilmə dərəcəsinə görə region əhalisini seqmentləşdirmək lazımdır. Turist xidmətlərinə tələb, əsasən, gəlirin səviyyəsi amilinə görə xarakterizə edilir. Bu meyar üzrə seqmentləşdirmənin həyata keçirilməsi əhali üçün daha optimal turizm növünün hər bir seqmentin maliyyə vəziyyətindən asılı olaraq seçilməsinə imkan verər.

Eyni zamanda, aztəminatlı istehlakçılar seqmenti üzrə xüsusi dəstək proqramının işlənməsinə kömək edər.

Qloballaşma şəraitində xarici mühitin təhlili turizm sisteminin inkişafında yeni istiqamətlərin axtarılması və formalaşmasında danılmaz bir amil kimi çıxış edir. Dünya maliyyə böhranı və onun nəticələri şəraitində xarici mühitin iqtisadi və siyasi amillərinə daha çox nəzər yetirmək lazımdır. Belə ki, onların təsiri demoqrafik, sosial-mədəni və elmi-texniki mühitdə əsaslı dəyişikliklərə gətirir. Belə bir vəziyyət ölkə iqtisadiyyatının bütün sahələrində, o cümlədən turizmdə səmərəli inkişafda öz əksini tapır.

Turizmin inkişafının ümumi təhlilinin ayrılmaz tərkib hissəsi statistik göstəricilərin təhlilidir. Belə ki, bu təhlil ölkə iqtisadiyyatında turizmin rolunun qiymətləndirilməsi, regionun sosial-iqtisadi vəziyyətinə turizmin təsirinin aşkar edilməsinə imkan verir. Bu da turizmdə idarəetmə orqanlarının və turist bazarında müəssisələrin fəaliyyətinin planlaşdırılmasına imkan verir.

Regionda turizmin inkişaf səviyyəsinin təhlilinin həyata keçirilməsində bir metod kimi SWOT təhlilindən istifadə edilir. Belə ki, bu metod turizm sistemində fəaliyyət göstərən güclü və zəif tərəfləri aşkar etməyə və qruplaşdırmağa imkan verir. Eyni zamanda, xarici mühitdə baş verən dəyişikliklər əsasında potensial təhlükəni və regionda turizmin gələcək inkişaf imkanlarını müəyyən etməyə şərait yaradır. Ölkədə turizmin fəaliyyəti və inkişafının SWOT təhlili aşağıdakı cədvəldə verilir.

Aparılan təhlil əsasında turizmin fəaliyyət və inkişaf problemlərini (blok 2) aşkar etmək, eyni zamanda onların həlli istiqamətində məqsəd və vəzifələri müəyyənləşdirmək (blok 3) imkanları yaranır.

Problemin mahiyyəti dedikdə, baş verən uyğunsuzluqlar, məqsədlə mövcud vəziyyət arasında ziddiyyətlər başa düşülür. [3]

Cədvəl 1

Azərbaycanda turizmin inkişafının SWOT təhlili

| Güclü tərəflər | İmkanlar |
|---|---|
| - zəngin mədəni-tarixi və təbii irs;<br>- regionlarda yeni turist məhsulunun yaranması;<br>- turist bazarında rəqabət yaradan özəl turist firmalarının sayının artması yeni və maraqlı turist proqramlarının artmasına gətirir;<br>- turizm sektoru üçün ali və orta təhsil ocaqlarında hazırlanan kadrlar. | - ümumi emosional vəziyyətin yüksəlməsində cəmiyyətin tələbatının yaranması baxımından dar ixtisaslaşma imkanı;<br>- daxili və gəlmə turizmi inkişaf etdirməklə turist firmalarının regionların sosial-iqtisadi inkişafına yatırımlarının artırılması;<br>- beynəlxalq turizm sərgilərində Azərbaycanın milli ekspozisiyalarının təşkili<br>- hər il beynəlxalq turist sərgilərinin keçirilməsi. |
| **Zəif tərəfləri** | **Təhlükələr** |
| - yeni tip proqramların işlənməməsi, ixtisaslaşdırılmış turizmin inkişafı (məsələn, kənd turizmi) istiqamətində turist potensialının yararsızlığı;<br>- turizm bazarının monitorinqi ilə əlaqədar statistik göstəricilərin hesablanmasının, turizmin iqtisadi rolunun qiymətləndirilməsinin vahid metodunun olmaması;<br>- turizm infrastrukturunun kifayət qədər inkişaf etməməsi;<br>- turist xidmətlərinin qiymətlərinin yüksək olması (otellərdə yerləşmə, qidalanma, nəqliyyat və s.);<br>- turist sənayesinin bütün sahələrində göstərilən xidmətlərin keyfiyyətinin aşağı olması. | - peşə ixtisas təhsili sistemində kadr hazırlığının olmaması;<br>- praktik biliklərin kifayət qədər olmaması;<br>- turizm sahəsində qanunvericilik bazasının mükəmməl olmaması;<br>- miqrasiya təhlükəsi olan ölkələrlə viza siyasətinin təkmil olmaması;<br>- ölkə daxilində avia və dəmiryol daşımalarının təkmil olmaması;<br>- qeyri-kommersiya dövlət reklamının xarici və daxili bazarda qənaətbəxş olmaması;<br>- turistlərin şəxsi təhlükəsizlik səviyyəsinin yüksək olmaması;<br>- dünya maliyyə-iqtisadi böhranı;<br>- əhalinin həyat səviyyəsinin qeyri-stabil olması;<br>- dünya valyutalarının qeyri stabil olması. |

Beləliklə, regionda turizmin fəaliyyət və inkişaf problemi dedikdə, onun turizmin davamlı inkişafının qlobal məqsədi ilə ziddiyyətin olmasıdır ki, bu da turist xidmətlərində insanların artan tələbatının təmin edilməsində özünü büruzə verir.

Cədvəlin materiallarına əsaslanaraq regionda turizmin səmərəli inkişafına mane olan problemləri qruplaşdıraq. Onlardan əhəmiyyətlisi aşağıdakılardan ibarətdir:

- turist resurslarından səmərəli istifadə;
- infrastrukturun inkişafı (xidmətin keyfiyyətinin yüksəldilməsi);
- normativ hüquqi bazanın formalaşdırılması;
- turizm sahəsində kadr hazırlığı;
- turizm haqqında tam və əlverişli informasiyanın formalaşması;
- turistlərin təhlükəsizliyinin təminatı.

Qoyulan problemlərin səmərəli həlli istiqamətində əlverişli şəraitin yaradılması məqsədilə onların həll edilmə səviyyələrini (blok 3) müəyyən etmək lazımdır. Regional və yerli problemləri, müəssisə səviyyəsində problemləri fərqləndirmək lazımdır. Ekspertlərin təhlili göstərir ki, problemlərin 80%-i regional və yerli problemlər, yalnız 20%-i turist biznesi ilə bağlı problemlərdir. Lakin problemlərin yuxarıdakı kimi fərqləndirilməsinə baxmayaraq, mövcud şəraitdə yaranan problemlər öz həllini tələb edirlər. Belə ki, yaranan problemlərin aradan qaldırılması istiqamətində qoyulan məqsədin reallaşdırılması prosesinin səmərəliliyinin yüksəldilməsi üçün müasir innovasiya metodlarından istifadə etmək lazımdır ki, bu da az xərclə yüksək nəticələr əldə etməyə imkan verir (cədvəl 2).

**Cədvəl 2**

**İnnovasiya yanaşması əsasında turizmin inkişaf problemlərinin həlli istiqamətləri**

| Problem | Problemin standart həlli | İnnovasiya yanaşması əsasında problemin həlli |
|---|---|---|
| Turist resurslarının istifadəsi | Turist marşrutlarının formalaşması | Turist marşrutlarının turistlərə məlum olmayan yerlər üzrə və ya attraktiv tədbirlərdən istifadə etməklə formalaşması (hadisələrin yenidən qurul-ması, folklor konsertlərinin təşkil edilməsi və s.) |
| İnfrastrukturun inkişafı (xidmətin keyfiyyətinin təmin edilməsi) | Otellərin timsalında: | |
| | Otellərdə mənəvi cəhətdən köhnəlmiş avadanlıqların olması (televizor, kompüter, bronlaşdırma sistemi və s.); işçilərin idarə edilməsində müasir metodlardan istifadə edilməməsi | Otellərin ETT-nin nailiyyətlərindən müştərilərin sorğusuna əsasən istifadə edilməsi, eyni za-manda xidmətlərin erqonomik və rahat xidmətlərdən istifadə edilməsi; yeni və müxtəlif xidmətlərin işlənməsi və təklif edilməsi |
| Normativ-hüquqi bazanın formalaşması | Normativ-hüquqi sənədlərin formalaş-masında köhnə informasiyalardan isti-fadə; yerli xüsusiyyətləri nəzərə alma-dan inkişaf proqramlarının işlənməsi | Konkret regionda turizmin inkişafının detallar üzrə təhlil edilməsi; ictimai təşkilatların, maraqlı kommersiya təşkilatlarının normativ hüquqi sənədlərinin hazırlanmasına cəlb edilməsi; biznes layihələrin normativ sənədlərə daxil edilməsi |
| Turizm sferasında kadrların hazırlanması | Tədris prosesində köhnə proqramlardan istifadə edilməsi | Nəzəri və praktiki biliklərin vizual vasitələrdən istifadə etməklə birləşməsi; distant təhsildən istifadə |

Ümumiləşdirilmiş problem və onların həlli innovasiyanın formalaşma mənbəyi kimi çıxış edir (blok 4). P.Druker düzgün olaraq qeyd edir ki, problemin dərk edilməsi elə sosial impulsdur ki, hər hansı bir innovasiya prosesinin başlanğıc mərhələsində təşəbbüs göstərir [4].

İlk dəfə innovasiya prosesi 1986-cı ildə "İnnovasiya lüğəti"ndə əks etdirilmişdir. Burada qeyd edilirdi ki, innovasiya prosesi ideyaların konkret məhsuldar nəticəyə mərhələlərlə keçirilməsinin ardıcıllığını əks etdirir. Bu ardıcıllıq ilkin olaraq problemin dərk edilməsi; orijinal ideya; tədqiqat və işləmə; istehsala və bazara ilkin çıxış; tədqiq və tətbiq; gəlir gətirən dəyişikliklər və təkmilləşdirmələri əks etdirir [5]. Hazırda innovasiya müxtəlif mənalarda dövriyyədə işlənilir. Lakin əksər iqtisadçı alimlərin fikrincə, innovasiya prosesi - elmi biliklərin innovasiyaya çevrilməsi prosesidir. Bu zaman o yeni məhsulun hazırlanması, yaradılması və bazarda kommersiya faydasına gətirən yeniliklərin praktiki reallaşdırılması ilə bağlı mərhələ, addımlar, tədbirlər məcmusunu əks etdirir. Bundan başqa, innovasiya prosesi nəticəsində əldə edilən yenilik həm yeni istehlak xüsusiyyətlərinə, həm də bazarda tələbata malik olmalıdır. Başqa sözlə, o elmi-texniki yeniliyə malik olmalı və yeni ictimai tələbatı ödəməlidir. Başqa bir müəllifin qeyd etdiyi kimi, innovasiya prosesi elə bir prosesdir ki, özündə elm, texnika, iqtisadiyyat, idarəetmə və sahibkarlığı birləşdirir [7]. Onun məqsədi yeniliyi əldə etmək və onun yaranmasından gəlir əldə edilənədək bütün kompleks (istehsal, mübadilə, istehlak) münasibətləri özündə birləşdirməkdir. İstehsal müəssisələrində innovasiya prosesi aşağıdakı quruluşa malikdir: fundamental tədqiqatlar – tətbiqi tədqiqatlar-işlənmə-layihələndirmə-tikinti-tətbiq-istehsal-marketinq – satış. Lakin qeyd edildiyi kimi, turizm xidmət sektoruna aiddir. Bu sahənin fərqli xüsusiyyəti ondan ibarətdir ki, burada məqsədyönlü fundamental, elmi-texniki, təcrübi-konstruktor işləmələri ilə məşğul olan ixtisaslaşdırılmış müəssisə və təşkilat yoxdur. Bu baxımdan, turizmdə innovasiya prosesi aşağıda göstərilən ardıcıl mərhələlərdən ibarətdir:

İY- İM – İİ – İS – İT – İQ – İD

Burada İY – ideyanın yaranması; İM – innovasiya marketinqi; İİ – innovasiyanın istehsalı (işlənməsi); İS - innovasiyanın reallaşması; İT- innovasiyanın təşviqi; İQ – innovasiyanın qiymətləndirilməsi; İD – innovasiyanın yayılması (diffuziyası).

İnnovasiya prosesinin reallaşdırılmasını turist firmasında nəzərdən keçirək. Müəyyən amillərin təsiri altında yeni turist məhsulunun yaradılması ideyası formalaşır. Sonra müəyyən istehlakçı qrupuna istiqamətlənmiş turist məhsulu müəyyənləşdirilir və işlənilir. Eyni zamanda, təcrübədə ideyanın reallaşma imkanları öyrənilir, tərəfdaş və sifarişçilərin seçimi, əsas və köməkçi, daşınma xidmətlərinin planlaşdırılması həyata keçirilir. Daha sonra qiymət

siyasəti işlənilir. Bundan sonra turist məhsulunun hazırlanmasına başlanılır: müqavilə bağlanır, iş sənədləri, informasiya materialları hazırlanır, qiymət siyahısı formalaşır, məhsulun eksperimental yoxlanması və sınaq satışı həyata keçirilir.

İnnovasiya prosesinin sonrakı mərhələsi geniş istehlakçı kütləsinə turist məhsulunun təklifindən ibarətdir. Eyni zamanda, turist məhsulunun irəliləyişi və bazara daxil olması üzrə kompleks tədbirlər işlənməlidir. Sonra məhsulun reallaşdırılmasının idarəedilməsi sistemi formalaşır. Müəyyən müddət keçdikdən sonra və müəyyən miqdar turist göndərişləri satıldıqdan sonra iqtisadi səmərəlilik qiymətləndirilir, eyni zamanda rəqabətqabiliyyətlilik və tələb müəyyən edilir. İnnovasiya prosesi o zaman bitir ki, turist məhsuluna böyük tələb formalaşır, turist bazarının digər iştirakçıları isə öz fəaliyyətlərində bu innovasiyanı fəal şəkildə tətbiq edirlər, yəni analoji məhsul işləyir və satırlar.

**Ədəbiyyat:**


1. "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı"nın qəbul edilməsi haqqında Azərbaycan respublikası Prezidentinin Sərəncamı. 2010-cu il, № 838. – "Azərbaycan" qəzeti, 07 aprel 2010 – cu il.
2. Azərbaycan Respublikasının "Turizm haqqında" Qanunu. – Bakı: 04 iyun 1999 – cu il
3. Qurbanov F.Ə. turizm fəaliyyətinin iqtisadi mexanizmi. – AMEA – nın İqtisadiyyat İnstitutu. Elmi əsərlər. – Bakı: 2012, № 4.
4. Друкер П. Менеджмент. Вызови XXI века. – М.: 2012.
5. Зайченнко С.А. Развитие инноваций в сфере услуг. – М.:Форсайт, 2007.
6. Леонтьев В.В. Экономика "затраты – выпуск". – М.:1966.
7. Семенова Т.Ю., Чекалин В.С. Социально – экономическое развитие регионов на основе инновационной деятельности. – СПб.: Инфода,2008

**Фируз Ахмед оглы Курбанов**

**Концептуальная модель эффективного развития туризма в Азербайджане**

**Резюме**

Туристический сектор занимает особое место в мире. Эта динамично развивающаяся отрасль международной торговли услуг.

Туризм – отрасль экономики, направленная на удовлетворение потребностей населения в отдыхе и повышение их уровня жизни. За последние 20 лет поток туристов в мире в среднем увеличился на 5.1%, что составило 43 млн. человек. 75 стран мира получили доход от туризма в размере 1 млрд. долларов США, а валютные поступления достигли 14%.

В современных условиях глобализации и ограниченности ресурсов как глобального социально-экономического события становится необходимым поиск различных подходов и новых способов сохранения тенденций интенсивного развития туризма с целью обеспечения растущих и меняющихся потребностей туристов.

**Ключевые слова:** Туризм, объекты инфраструктуры, спрос, предложение, инновация, SWOT анализ, качество, моделирование

**Firuz Ahmed Gurbanov**

**The conceptual model of rational development of tourism in Azerbaijan**

**Summary**

Having an important place in the world tourism sector is one of the developed fields international trade by services. Tourism is one of the service fields directed to the increasing of living standarts of population. The last 20 years annual average growth rate what in turn is 43.000 tourists. 75 countries over the world have earned income about 1 billion US dollars from tourism sector. That is 14% of foreign currency inflows. Nowadays globalization and scarsity of resource as global socio economic problem has to meet the increasing needs of the tourists. On that way it is stricty required to search different methods to satisfy and support the dynamic development of this economic sphere. One of these methods is providing sustainable development of production process in tourism sector involving innovative technics.

**Key words:** Tourism, infrastructure objects, demand, supply, innovation, SWOT analysis, quality, modeling.